**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**GÜNAY ÜMÜDVAR QIZI QULİYEVA**

# İNHİSARÇILIQ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNİN MAKROİQTİSADİ PROBLEMLƏRİ

İxtisas: 5308.01 “Ümumi iqtisadiyyat”

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2014**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin “İqtisadiyyatın tənzimlənməsi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** - iqtisad elmləri doktoru, professor
**Məhiş Alış oğlu Əhmədov**

**Rəsmi opponentlər:** - iqtisad elmləri doktoru, professor
**Xanhüseyn Hüseynağa oğlu Kazımlı**

- iqtisad elmləri namizədi, dosent
**Azər Ağazeynal oğlu Qurbanzadə**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu**

Müdafiə 26 noyabr 2014-cü ildə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdindəki D 02.051 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6,
Azərbaycan Dövlət İqtisad Universiteti

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 21 oktyabr 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d.,** **dosent Z.İ. Mustafayeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. Qloballaşma şəraitində səmərəli fəaliyyət göstərən bazar iqtisadiyyatının fundamental amil və şərtlərindən biri olan effektiv rəqabət mühiti formalaşdırmadan dayanıqlı milli iqtisadi sistemi yaratmaq və inkişaf etdirmək mümkün deyildir. Qlobal rəqabət prosesinə qoşulan ölkələrin sayının artması müvafiq olaraq dövlətlərin həyata keçirdiyi antiinhisar siyasəti və tədbirlərinin dəyişməsi ilə müşahidə olunur. Dünya iqtisadiyyatında baş verən inhisarçılıq meyillərinin tənzimlənməsində ənənəvi antiinhisar tədbirləri və normalarının artıq yetərli olmaması isə mövcud mexanizmlərin təkmilləşdirilməsini və yenilərinin tədbiq edilməsini obyektiv zərurətə çevirir. Yaxın gələcəkdə ölkəmizdə milli iqtisadiyyatın inkişafında antiinhisar tənzimlənməsinin mühüm əhəmiyyətini nəzərə alaraq "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında xüsusi vurğulanır ki", ölkəmizin yüksək rəqabətqabiliyyətli iqtisadiyyata keçidi ölkəmizdə davamlı iqtisadi artımın və yüksək sosial rifahın təmin edilməsinin ana xəttini təşkil edir."

Bu baxımdan rəqabətin inkişafı, qorunması, dəstəklənməsi məqsədilə antiinhisar siyasəti inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrdə müxtəlif miqyas və səviyyələrdə həyata keçirilir. Bu sahədə yüz ildən çox dövr ərzində əldə olunmuş dünya təcrübəsi hər bir ölkədə rəqabətin dəstəklənməsi, haqsız rəqabətin qarşısının alınması və ya məhdudlaşdırılması kiçik sahibkarların rəqabət bazarına daxil olması və bununla da daxili bazarda inhisarlaşma prosesinin yüksəldilməsinin qarşısının alınması dövlətin tənzimləmə siyasəti vasitəsilə reallaşdırılır. Milli iqtisadiyyatların formalaşması və inkşafı prosesində dövlətin hazırladığı və həyata keçirdiyi tədbirlər nəticəsində rəqabət mühiti yaranır ki, bu da hər bir ölkə daxilində milli iqtisadiyyatın artımı amilinə çevrilir.

Qeyd etmək lazımdır ki, müstəqillik illərində Azərbaycanda antiinhisar siyasətinin həyata keçirilməsi, rəqabətin qorunması və inkişafı, təbii inhisarların məhsul və xidmətlərinə qiymətlərin tənzimlənməsi sahəsində kifayət qədər qanun və normativ aktların qəbul olanmasına baxmayaraq onların bir çoxu kifayət qədər səmərəli reallaşma mexanizminə malik deyildir. Digər tərəfdən müasir dövrdə milli iqtisadiyyatın və bazarın inkişafının iqtisadi paradiqmasının dəyişməsi nəticəsində rəqabəti və inhisarları tənzimləmə meyarları, normaları və standartları, onların tətbiqinin mexanizmləri və üsulları modifikasiya olunur. Bütün bunlar öz növbəsində inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və effektiv rəqabət mühitinin formalaşdırılmasının nəzəri-

metodoloji və əməli problemlərinin araşdırılması və antiinhisar qanunvericiliyinin reallaşdırılması zamanı meydana çıxan müasir problemlərin sistemli təhlili və dəyərləndirilməsini tələb edir.

**Problemin öyrənilmə səviyyəsi**. Azərbaycanda ümumən inhisarçılıq fəaliyyəti və onun makroiqtisadi tənzimlənməsi ilə bağlı problemləri respulikamızın iqtisadçı alimlərindən Ə.C.Muradov, A.A.Nadirov, Z.Ə.Səmədzadə, Ş.H.Hacıyev Ə.İ.Bayramov, T.Ə.Quliyev, İ.N.Alıyev, M.Meybullayev, X.H.Kazımlı, N.M.İmanov, Ə.P.Babayev, R.T.Həsənov, R.İ.Quliyev, I.A.Kərimli, M.A.Əhmədov, F.F.Mustafayev, Q.M.Manafov, A.Ş.Şəkərəliyev, Ş.S.Qafarov, Ü.Q.Əliyev, A.A.Qurbanzadə və başqalarının tədqiqatlarında bu və ya digər dərəcədə araşdırmışlar. İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin makroiqtisadi problemlərinin tədqiq olunmasında dünyanın məşhur iqtisadçı alimlərindən Y.Şumpeter, P.Samuelson, E.Çemberlin, A.Marşall, E. Meyson, D. Uolles, U. Nikols, C. Marxem, M. C.Per, R. Tennant, C. Makki, D.J.Bodraks, M. Fridmen, C. Stiqlits, S.Pelsman, L. Tesler, Q. Demens, Don Makci, U. Boumen, C.Beyn, T.J. DiLorenzo, C.Beker, T.Breznahan, R.Krendal, K.Uinston və digərlərinin xidmətləri böyükdür. Rusiya alimlərindən A.Livşits, A.Yudanov, L.Q.Ramenski, R.Kuçukov, Y.Oreşin, V.Kuşlin və s.-ləri bu problemlərə həsr olunmuş dəyərli tədqiqatlar aparmışlar.

Qeyd etmək istərdik ki, respublika iqtisadçı alimlərinin tədqiqatları əsasən transformasiya şəraitində Azərbaycanda makroiqtisadi sabitliyin təmin edilməsi, bazar iqtisadiyyatının təşəkkülü və formalaşması prosesində meydana çıxan inhisarçılıq problemlərilə bağlı dövlətin inhisarların fəaliyyətini və rəqabət mühitinin formalaşmasının tənzimlənməsi zəruriliyinin, tədbir və mexanizmlərinin əsaslandırılmasının nəzəri problemlərinə həsr edilmişdir. Eyni zamanda inhisarçılıq problemləri ilə bağlı prof. Ə.İ.Bayramovun tədqiqatları xüsusi qeyd olunmalıdır. Ümumən qeyd olunan problemlərlə bağlı respublikamızda aparılan tədqiqatları yüksək qiymətləndirməklə yanaşı müasir dövrdə Azərbaycanda davamlı və dinamik inkişaf modelinə keçid üçün yaradılan potensial zəmin, institusional dəyişikliklər, sosial-iqtisadi inkişafda əldə olunan nəticələr qloballaşma və inteqrasiya proseslərinin təsiri altında dəyişən şəraitə və tələbə uyğun olaraq inhisarçılıq fəaliyyətinin dövlət tənzimlənməsinin nəzəri metodoloji əsaslarının və əməli problemlərinin mövcud milli reallıqlara nəzərən yenidən dərk edilərək dəyərləndirilməsini tələb edir. Optimal rəqabət mühitinin formalaşdırılmasında inhisarçılıq fəaliyyətinin dövlət tənzimlənməsinin əməli cəhətdən səmərəliliyinin artırılması

zərurəti, öz növbəsində, inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin qanunauyğunluqlarının, və xüsusiyyətlərinin makroiqtisadi baxımdan sistemli və kompleks tədqiqinin, yenidən dəyərləndirilməsini tələb edir.

Bütün bunlar bir daha dissertasiya mövzusunun aktuallığını, elmi-praktiki əhəmiyyətini əyani surətdə əks etdirir və mövzunun tədqiqat obyekti kimi seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın əsas məqsədi** inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin nəzəri-metoloji və normativ-hüquqi əsaslarının, müasir vəziyyətinin sistemli təhlili və dövlət tərəfindən inhisarçılıq fəaliyyətinin tənzimlənməsi mexanizmlərindən istifadə imkanlarının və təsirlərinin qiymətləndirilməsi əsasında antiinhisar tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri və prioritetlərini müəyyənləşdirmək, beynəlxalq təcrübəyə əsaslanaraq müvafiq ümumiləşdirmələr etməklə müasir dövrdə milli iqtisadiyyatın inkişaf strategiyasında inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin dövlət mexanizminin təkminləşdirilməsi istiqamətlərini elmi və əməli cəhətdən əsaslandırmaq üçün müvafiq təklif və tövsiyyələr irəli sürməkdən ibarətdir. Dissertasiyada qarşıya qoyulmuş məqsədə çatmaq üçün nəzəri və praktiki baxımdan aşağıdakı konkret **vəzifələri**n yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- inhisarçılıq fəaliyyətinin tədqiqinin konseptual əsasları və ona dair baxışların təkamülünü tədqiq etmək, onların müqayisəli təhlilini verməklə müvafiq qanunauyğunluqları və spesifik cəhətləri aşkara çıxarmaq;
- qloballaşma şəraitində rəqabət mühitinin optimalaşdırılmasının meyarları, prinsipləri, mexanizmləri və göstəricilər sistemini müəyyənləşdirmək və dəyərləndirmək;
- inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin dünya təcrübəsi və onların Azərbaycana tətbiqinin imkanları və effektivliyini təhlil etmək və qiymətləndirmək;
- Azərbaycanda inhisarçılıq fəaliyyəti və onun dövlət tənzimlənməsinin müasir vəziyyətinin, təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin spesifik cəhətləri və mexanizmlərinin təhlil edilməsi və qiymətləndirilməsi;
- Təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin spesifik cəhətləri və mexanizmlərini araşdırmaq və onun səmərəli fəaliyyətinin konkret istiqamətlərini müəyyənləşdirmək;
- inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin regional aspektlərini araşdırmaqla bu problemin əməli cəhətdən effektiv reallaşdırılmasının konseptual əsas və istiqamətlərini müəyyənləşdirmək;

- müasir dövrdə dövlətin antiinhisar qanunvericiliyi və normativ hüquqi bazanın təkmilləşdirilməsi prioritetlərinə və effektiv rəqabət mühitinin təmin edilməsinin dövlət mexanizminin təkmilləşdirilməsinin başlıca istiqamətlərini təyin etmək;
- davamlı inkişaf modelinə keçid və dünya iqtisadiyyatına fəal inteqrasiya şəraitində dövlətin antiinhisar siyasətinin prioritetlərini müəyən edərək müvafiq təkliflər irəli sürmək.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın **obyektini** Azərbaycanın milli iqtisadiyyatında fəaliyyət göstərən inhisarçı təsərrüfat subyektləri, sahələri, onun təşəkkülü və formalaşması istiqamətləri, **predmetini** isə milli iqtisadiyyatın təşəkkülü və inkişafında inhisarçılıq fəaliyyətinin dövlət tənzimləməsi, onun mexanizmləri, amil və şərtlərinin nəzəri və əməli problemlərinin tədqiqi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** tarixi və məntiqi ardıcıllıq gözlənilməklə klassik, neoklassik, keynsçi, monetar, liberal və digər iqtisadi məktəblərin nümayəndələrinin, habelə müasir iqtisadçı alimlərin inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin formalaşması və inkişafı ilə bağlı elmi müddəaları, Azərbaycan Respublikası Prezidenti və Hökumətin inhisarçılığın yaratdığı sosial-iqtisadi problemlərlə və rəqabət mühitinin formalaşdırılması, inkişafı ilə bağlı qərarları, sərəncamları, proqramları, Milli Məclis tərəfindən qəbul olunmuş qanunlar, digər normativ-hüquqi aktlar, Azərbaycanın, eləcə də dünyanın aparıcı iqtisadçı alimlərinin fundamental elmi-tədqiqat əsərləri təşkil etmişdir. Tədqiqat prosesində sintez, sinergetik və sistemli paradiqma nöqteyi-nəzərdən yanaşma, statistik metodlardan və s-dən geniş istifadə olunmuş, varislik və məntiqlilik prinsiplərinin tətbiqinə cəhd edilmişdir.

**Dissertasiya işinin elmi yeniliyi**. İnhisarların fəaliyyətinin tənzimlənməsi probleminə müxtəlif iqtisadi məktəblərin baxışları və Azərbaycan iqtisadiyyatının qloballaşma prosesinin təsiri altında dəyişən şəraitə, tələbata uyğun səmərəli rəqabət mühiti modelinin seçilməsi, onun əməli cəhətdən reallaşdırılması mexanizminin təyini, sistem dəyişikliklərinin reallaşdırılmasında inhisarçılıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkamülü, həyata keçirilən antiinhisar siyasətinin pozitiv və neqativ cəhətlərinin nəzəri-praktiki baxımdan təhlili, ümumi qanunauyğunluqları və ölkəmizin milli reallıqlarından irəli gələn xüsusiyyətlərin aşkara çıxarılması, dəyərləndirilməsi, müasir dövrdə bu sahədə həyata keçirilən antiinhisar siyasətinin təkmilləşdirilməsi istiqamətlərini, prioritetlərini müəyyənləşdirməyə imkan vermişdir. Təbii inhisar sahələrinin, habelə regional

inhisarçılar fəaliyyətinin dövlət tənzimlənməsinin spesifik cəhətlərinin aşkara çıxarılması və problemlərin səmərəli həlli ilə bağlı konkret təkliflə irəli sürülmüşdür.

Qeyd olunanlarla bağlı müəllifin gəldiyi elmi yeniliklərə aşağıdakılar aid edilə bilər:

- Respublikamızın konkret materialları əsasında qloballaşma şəraitində inhisarçılıq fəaliyyətinin dinamikasını müəyyən edən obyektiv və subyektiv amillər sistemli təhlil edilmiş və bu proseslərin xarakterinə son illərdə tətbiq olunan dövlət müdaxiləsinin forma, miqyas və hədlərinin müsbət və mənfi cəhətləri araşdırılaraq dəyərləndirilmişdir;
- optimal rəqabət mühitinin formalaşdırılması strategiyasının həyata keçirilməsində dövlətin rolu və həyata keçirdiyi tədbirlər dəyərləndirilmiş, müasir dövrdə antiinhisar qanunvericiliyinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı inhisarların bazarda optimal həddi və səmərəli bazar fəaliyyətinin təmin edilməsi üçün rəqabətin prinsipləri, mexanizmləri və göstəricilər sistemi ilə əlaqədar nəzəri-metodoloji əsaslar müəyyənləşdirilməklə müvafiq təkliflər verilmişdir;
- antiinhisar siyasətin reallaşması üçün dövlət tənzimlənməsinin effektivliyinin artırılmasının başlıca istiqamətləri beynəlxalq təcrübə əsasənda nəzərdən keçirilməklə aşkarlanmış və təkliflər hazırlanmışdır;
- qloballaşma şəraitində milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, iqtisadiyyatın təhlükəsizliyinin möhkəmləndirilməsi, davamlı inkişafın təmin edilməsində təbii inhisarların fəaliyyətinin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflər və tövsiyyələr irəli sürülmüşdür;
- Azərbaycanın qlobal dünya iqtisadiyyatına qovuşmasında dövlətin antiinhisar qanunvericiliyi və normativ hüquqi bazasının mövcud problemləri göstərilməklə onların təkmilləşdirilməsi yolları və prioritetləri müəyyən edilmişdir;
- müasir dövrdə Azərbaycanın yeni davamlı inkişaf mərhələsinə daxil olduğu dövrdə effektiv rəqabət mühitinin təmin edilməsinin dövlət mexanizminin təkmilləşdirilməsinin başlıca istiqamətləri, müdaxiləsinin optimal hədlərinin elmi-nəzəri və əməli-praktiki cəhətdən əsaslandırılmasına cəhd edilmiş, müvafiq təkliflər və tövsiyyələr irəli sürülmüşdür.

**Tədqiqatın mənbələri və informasiya bazası.** Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası dövlət Statistika Komitəsinin, İqtisadiyyat və Sənaye , Maliyyə Nazirlikləriinin, Milli Bankın ümumiləşmiş rəsmi illik məcmuə və hesabatları, həmçinin Elmi-tədqiqat institutlarının tədqiqat işlərinin nəticələri, təklif və tövsiyyələri təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti post transformasiya dövrünü yaşayan və inkişaf edən milli iqtisadiyyatlarda dövlətin inhisarçılıq fəaliyyətinin tənzimləməsinə dair müxtəlif iqtisadi məktəblər və iqtisadçıların baxışlarının müqayisəli nəzəri-metodoloji ümumiləşdirmələri aparılmaqla, bazar və dövlət tənzimləmə mexanizmlərinin obyektiv və subyektiv amilləri əsasında Azərbaycan reallıqları prizmasından inhisarların fəaliyyətinə dövlət müdaxiləsinin optimal nisbətlərinin formalaşdırılması mümkünlüyünün nəzəri və metodoloji baxımdan təhlilindən, səmərəli rəqabət mühitinin formalaşmasında dövlət müdaxiləsinin optimal hədlərinin müəyyənləşdirilməsindən, rəqabət qabiliyyətliliyinin artırılması və inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin regional aspektlərinin təyinindən və nəhayət, davamlı inkişafın təmin edilməsində inhisarçılığın aradan qaldırılması ilə bağlı dövlətin antiinhisar siyasətinin prioritetlərini nəzəri cəhətdən müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunmuş nəticələr, edilmiş ümumiləşdirmələr və irəli sürülən təkliflər ölkəmizdə dövlətin antiinhisar tənzimləməsinin təkmilləşdirilməsi ilə əlaqədar irəli sürülən təklif və tövsiyyələr mövcud problemin əməli cəhətdən həllində, iqtisadiyyatın sosial-iqtisadi inkişafında və idarə edilməsində, eyni zamanda iqtisadiyyat istiqamətli ixtisaslar üzrə tədris prosesində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələri**. Dissertasiya işi "İqtisadiyyatın tənzimlənməsi" və "İqtisadi nəzəriyyə 2" kafedralarının birgə iclasında və Azərbaycan Dövlət İqtisad Universitetinin elmi seminarında müzakirə olunmuşdur. Dissertaisyanın mövzusu, əsas müddəaları və işdə irəli sürülən təkliflər əsasında ümumi həcmi 4.9 ş.ç.v. olan 11 elmi məqalə, 1 tezis dərc olunmuşdur. Bu məqalələrdən ikisi xarici elmi nəşrlərdə dərc edilmişdir. Dissertasiyada irəli sürülən mülahizə və təkliflər respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslarda təqdim edilmişdir və tədbiqi ilə əlaqədar Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu 33/33-7/14 saylı müsbət arayış vermisdir (arayış əlavə olunur).

Dissertasiya işinin mövzusu Azərbaycan Dövlət İqtisad Universitetinin «Iqtisadiyyatın tənzimlənməsi» kafedrasının elmi-tədqiqat istiqamətinə uyğundur.

**Dissertasiyanın həcmi və strukturu**. Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Işin ümumi həcmi

165 səhifədən, 3 şəkil, 19 cədvəldən ibarətdir. Işdə 118 adda ədəbiyyatdan istifadə edilmişdir.

Tədqiqatın strukturu aşağıdakı kimidir.

**MÜNDƏRİCAT**

**GİRİŞ**

**Fəsil i. İnhisarçiliq fəaliyyətinin tənzimlənməsinin nəzəri-metodoloji əsasları**

1.1. İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin tədqiqinin konseptual əsasları və ona dair baxışların təkamülü.

1.2. Qloballaşma şəraitində rəqabət mühitinin optimalaşdırılmasının meyarları, prinsipləri, mexanizmləri və göstəricilər sistemi.

1.3. Inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin dünya təcrübəsi və onların Azərbaycana tətbiqinin imkanları və effektivliyi.

**Fəsil II. Azərbaycan respublikasinda inhisarçiliq fəaliyyətinin tənzimlənməsinin müasir vəziyyətinin sistemli təhlili və qiymətləndirilməsi**

2.1. Azərbaycanda inhisarçılıq fəaliyyəti, onun dövlət tənzimlənməsinin müasir vəziyyətinin sistemli təhlili və dəyərləndirilməsi.

2.2. Təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin spesifik cəhətləri və mexanizmləri.

2.3.İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin regional aspektləri

**Fəsil III. Azərbaycan respublikasinda dövlətin antiinhisar tənzimləməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri və prioritetləri**

3.1.Müasir dövrdə dövlətin antiinhisar qanunvericiliyi və normativ - hüquqi təminatının təkmilləşdirilməsi yolları.

3.2.Effektiv rəqabət mühitinin təmin edilməsinin dövlət mexanizminin təkmilləşdirilməsinin başlıca istiqamətləri.

3.3. Qloballaşma şəraitində dövlətin antiinhisar siyasətinin prioritetləri

**Nəticə**

**Istifadə olunan ədəbiyyat**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**1. İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin nəzəri əsasları, dünya təcrübəsi və onun Azərbaycanda tədbiqi imkanları araşdırılaraq konseptual ümumiləşdirilmələr aparılmışdır.**

Təcrübə göstərir ki, iqtisadiyyatda rəqabət mühitinin düzgün təşkil edilməməsi nəticəsində yaranan müxtəlif təsərrüfat subyektlərinin inhisarçı mövqeyə malik olması normal bazar mexanizminin fəaliyyətində bir sıra neqativ halların meydana çıxmasına, əsasən də süni qiymət artımına, əsassız olaraq bu məhsullara görə yüksək ödəniş tətbiq olunması sayəsində alıcıların itkilərinə, ikincisi, yüksək qiyməti saxlamaq naminə məhsul və xidmətlərin istehsalının məhdudlaşdırıdmasına, yəni süni qıtlığın yaradılmasına, bunun nəticəsi kimi isə müxtəlif sahələr arasında resursların axınının məhdudlaşdırılmasına və nəticədə qeyri-səmərəli bölgüsünün formalaşmasına, nəhayət, məhsulun keyfiyyətinin, əmək şəraitinin pisləşməsinə, istehsalın texniki-texnoloji cəhətdən inkişafının ləngiməsinə və s. səbəb olur. Ona görə də inhisarçılığın aradan qaldırılması, səmərəli rəqabət mühitinin yaradılaraq inkişaf etdirilməsi zərurəti dövlətin antiinhisar tədbirlərinin reallaşdırılmasını strateji bir məqsəd kimi qarşıya qoyur. Qeyd etmək lazımdır ki, bazar rəqabətinin inhisarlar tərəfindən sıxışdırılması nəticədə cəmiyyəti külli miqdarda iqtisadi -sosial itkilərlə məruz qoyur və iqtisadi tərəqqinin əngəlinə cevrilir, əğər tarixi baxımdan inhisarçılığın tənzimlənməsi probleminin tədqiqinə diqqət yetirsək onda bunun hələ iqtisadi nəzəriyyənin formalaşması dövründən öncəyə aid olmasını və antiinhisar tənzimlənməsinin tarixi köklərinin daha qədim olduğunu görərik. Daha sonralar inhisarçılıq fəaliyyətinin tənzimlənməsi ilə əlaqədar qanunvericilik bazası təkmilləşdirilmiş və ilk antiinhisar qanunları kimi 1890-cı ildə ABŞ-da Şerman qanunu, 1914-cu ildə Kleyton qanunu, 1936-cı ilin Robinson-Petman qanunu qəbul edilmiş və 1950-ci ildə bu qanuna Seller-Kefover düzəlişləri qəbul edilmişdir. Aparılan araşdırmalar birmənalı olaraq qeyd etməyə imkan verir ki, antiinhisar siyasəti və onun qarşıya qoyduğu məqsədlər, vəzifələr, onlara nail olmağın yolları və s. bu kimi məqamlara yanaşmalar müxtəlifdir. Bir qayda olaraq siyasətçilər bu məqsədlərə nail olmaq üçün zəruri olan xərclərin, məsrəflərin miqdarı haqda düşünmür və nəyin bahasına olursa-olsun dövlətin vəsaitləri hesabına bu məqsədlərə catmağı məqsədəuyğun hesab edirdilər. Belə ki, süni şəkildə istehsalın birləşməsinə və ya da əmtəə bazarlarının genişlənməsinə maneəçilik törədir ki, bu da son nəticədə daha səmərəli fəaliyyət ğöstərən istehsalçılara ziyan vura bilər ki, bu da öz növbəsində rəqabət prosesində

zəif istehsalçıların bazardan sıxışdırılıb çıxarılmasına mane olar. Lakin müasir dövrdə dövlət müdaxiləsinin optimal həddinin təmin edilməsi və müdaxilənin mənfi nəticələrini azaltmaq üçün antiinhisar qanunvericiliyinin hazırlanması və təkmilləşdirilməsində iqtisadçıların rolu durmadan artır. Onu da qeyd etmək lazımdır ki, antiinhisar tənzimləmə sahəsində iqtisadcıların tədqiqatları əsasən təsərrüfat subyektlərin birləşmələrinin təhlilinə, şaquli, üfüqi əlaqə və məhdudiyyətlərə, qiymətqoyma sahəsində həyata kecirilən tədbirlərin nəticələrinin müəyyənləşdirilməsinə yönəldilmişdir. Əvvəla, təsərrüfat subyektlərinin bazarda birləşməsinin məhsuldarlıqla əlaqələndirilməsi dilemması hələ də tam birmənalı həllini tapmayıb. Belə ki, nəzərdə tutulan birləşmədən dövlətə hər hansı bir növ ödənişin məbləğinin həcmi daim müzakirə obyektidir. Son illərdə bazar hakimiyyətinin genişlənməsindən meydana cıxan cəmiyyət üçün potensial itki ilə məhsuldarlığın artması potensialı arasında seçim problemi geniş müzakirə olunsa da, nəzərə almalıyıq ki, məhsuldarlığın artırılmasına bir cöx amil və şərtlərdən ona nail olmaqdan daha asandır. Diğər tərəfdən təsərrüfat subyektləri məhsuldarlığı artıqmaq naminə birləşirlərsə, amma nəticədə ğözlənilən məhsuldarlıq əldə olunmursa, onda inhisarları yenidən müstəqil bazar subyektlərinə cevirmək daha çətin bir prosesə çevrilir. Ikincisi, təsərrüfat subyektlərinin bazarı zəbt etmək və hegemonluq qazanmaq istəyinin təhlilinin dəyərləndirilməsinə bir qədər diqqətli yanaşma tələb olunur. Belə ki, aşağı qiymət strategiyası yolu ilə bazarın zəbt edilməsi əksər hallarda, qiymətlərin xərc səviyyəsində təyin edilməsi, bir çox hallarda isə dempinq siyasətinin, başqa sözlə, rəqibləri bazardan sıxışdırıb çıxartdıqdan və bazara hakim olduqdan sonra isə qiymətləri artırmaq və mənfəət əldə etmək kimi şərh edilir. Amma problemə belə dar mənada yanaşılması bir sıra problemləri, yəni rəqabət aparan təsərrüfat subyektnin aşağı qiymət reputasiyasının alıcılara nə dərəcədə mənfi təsir edəcəyini, onları qaçırmayacağını, alıcılar onun məhsulunun keyfiyyətinə diqqət yetirməyəcəyi və s. sualları meydana cıxa biləcəyini nəzərə almır. Üçüncüsü, bazarın sərhədlərinin (hüdudlarının) təyini məsələsi də diskussiya obyekti olaraq qalmaqdadır. İqtisadi məlumat və ədəbiyyatlarda inhisarın müəyyən edilməsi onun yüksək mənfəət əldə etməsi kimi fərqli xüsusiyyəti ilə əlaqələndirilir. Amma nəzərə alsaq ki, bir çox təsərrüfat subyektlərinin mühasibat sənədlərində mənfəətin gizlədilməsi baş verir və nəticədə həm dövlət orqanları, həm də iqtisadçılar bazarın hüdudlarını təyin etməyə çətinlik çəkirlər. Ona görə bu sahədə tədqiqatların aparılmasında daha dəqiq informasiya bazasının olmasına ehtiyac duyulur. Dördüncüsü,

iqtisadçılar antiinhisar qanun-vericiliyinin tətbiqinin nəticələrinin təhlilini aparmaqla onun səmərəliliyi barədə əsaslandırılmış müddəalar irəli sürməlidirlər. Həm də bu zaman əsas məsələ bazarda təsərrüfat subyektlərin birləşmələri və ya bu birləşmə faktlarının qarşısının alınmasına yönəldilmiş faktlar deyil, birləşmədən öncə və ondan sonrakı qiymət dəyişmələrinin təhlilinə, qiymətləndirilməsinə əsaslanmalıdır.

**2. Müasir dünyada rəqabət mühitinin formalaşdırılması araşdırılaraq qiymətləndirilmiş, onun optillaşdırılması meyarları, prinsipləri, mexanizmləri və göstəriciləri sistemi müəyyənləşdirilmişdir.**

Məlumdur ki, bazar münasibətləri yetkinləşdikcə rəqabət daha ğeniş tənzimləyici, motivləşdirici, bölgü və nəzarət funksiyalarını yerinə yetirir ki, bu da öz növbəsində dövlətin bu sahədə siyasətinin daha əhatəli və təkmil olmasını tələb edir. Qloballaşma şəraitində milli iqtisadiyyatların açıqlığının artması sayəsində beynəlxalq rəqabət mühitinin təsiri əhəmiyyətli dərəcədə ğüclənir. Bu zaman dövlət milli istehsalçıları təkcə ölkə daxilində mövcud olan inhisarçılıq meyllərindən deyil, eləcə də mümkün qədər qlobal rəqabətin neqativ effektlərindən qorumaqla bağlı tədbirlərini artırmaq zərurətində qalır. Təcrübə göstərir ki, bu problem inkişaf etməkdə olan ölkələr üçün daha aktualdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq məqsədilə müvafiq normativ-hüquqi bazanın, institusional əsasların, effektiv gömrük, vergi rejiminin yaradılması, korrupsiya və bürokratiyaya qarşı sərt mübarizə aparılması mühüm əhəmiyyətə malikdir. Beləliklə, bu və ya digər səbəblər rəqabət mühitinə təsirsiz ötüşmür, onların dəyişməsi, konbinə edilərək təsirinin başqa təzahürləri daim rəqabət mühitinin vəziyyətinin qiymətləndlirilməsini vacib edir. Rəqabət mühitinin vəziyyətinə dair bir çox yanaşmaları ümumiləşdirərək aşağıdakı sxem 1 vasitəsilə onun qiymətləndirilməsi istiqamətlərinə diqqət yetirək.

Sxemdən göründüyü kimi, rəqabətin vəziyyətinin qiymətləndirilməsi ümumi halda davranış, struktur və funksional yanaşmanı tələb etsə də, onların hər biri öz daxilində fərqli istiqamətlərə bölünür. Biz bütün tədqiqat boyu həmin istiqamətlərə bu və ya digər problemin şərhi zamanı toxunduğumuzdan onların burada geniş izahına ehtiyac duymuruq.




**Sxem 1. Mövcud olan yanaşmalar əsasında rəqabətin vəziyyətinin qiymətləndirilməsi istiqamətləri**

Təsərrüfat subyektləri arasında rəqabət mühitindən fərqli olaraq əmtəələr arasında rəqabət mühitinin təhlili zamanı onu xarakterizə edən göstəricilərin nomenklaturasını təyin etmək tələb olunur ki, bu da bir sıra çətinliklərlə əlaqədardır. Çünki müasir ədəbiyyatlarda (təcrübədə tətbiqi əhəmiyyəti yüksək olsa da) praktiki olaraq əmtəə rəqabət mühitini xarakterizə edən göstəricilərin dəqiq reqlamentasiyası mövcud deyil. Buna baxmayaraq rəqabət mühitinin mövcud olan göstəricilərini ümumiləşdirərək onları aşağıdakı kimi qruplaşdırmaq olar:




**Sxem 2. Rəqabət mühitinin göstəriciləri**

Sxem 2-də verilən göstəricilərin müasir şəraitdə hər birinin xüsusiyyətlərinin açıqlanmasına ayrı-ayrılıqda diqqət yetirək. Bazarda əmtəə bolluğu təsərrüfat subyektlər və rəqib əmtəələr arasında rəqabəti formalaşdırsa da reallıqda zəruri tələblə qarşılanmazsa, sadəcə olaraq bazarda rəqabət mühiti illüziyasını yaratmış olur. Nəticədə isə tələbə cavab verən keyfiyyətli əmtəələrin qıtlığı müşahidə olunur və belə hal əsasən bazarın ucuz və keyfiyyətsiz əmtəələrlə doldurulması zamanı müşahidə olunur. Bunun isə səbəbləri müxtəlif ola bilər və bu səbəblərə misal olaraq

tələbin ödəniş qabiliyyətinin (əsasən də əhalinin gəlirinin aşağı olması, yoxsulluğun yüksək olması, əmək haqqının vaxtında verilməməsi və s. üzündən) aşağı olması, alıcıların mental xüsusiyyətlərini, dövlətin bazarı müdafiə və ona müdaxilə tədbirlərininin, bürokratik və korrupsiya hallarının kəskin çox olması və s.-ni göstərə bilərik. Ödəniş qabiliyyətli tələb uzun müddət mövcud ola bilmədiyindən onun məhdud həcmi rəqabət mühitinin xarakterik göstəricisidir. Digər tərəfdən də nəzərə almaq lazımdır ki, bazarda (xüsusilə qıtlıq olan halda) bir əmtəəyə olan tələb digər (bəzər və ya bir çox hallarda istehlakçıları qane etməyən) qarşılıqlı əvəz edilən əmtəələr hesabına ödənilə bilir. Belə olduqda artıq rəqabət qabiliyyətliliyinin artırlmasından deyil, bazarın bu seqmentində rəqabət mühitinin zəif olmasından danışmaq daha düzgün hesab edilir. Digər bir şkala kimi bazarın əmtəələrlə təmin edilməsi dərəcəsi yüksək olduqda bir sıra əmtəələrin müəyyən zaman kəsiyində bazar tsiklinin məhdudlaşdırılmasına, məhsul artıqlığının anbarlarda yığılıb qalmasına və maliyyə risklərinin artmasına səbəb ola bilməsidir. Ona görə də bir sıra məhsulların rəqabətqabiliyyətliliyi yalnız milli bazar çərçivəsində deyil, həm də beynəlxalq səviyyədə təhlil edilməni tələb edir. Müasir dövrdə daha çox qeyri-qiymət rəqabəti metodlarına üstünlük verilir. Bunun izahı isə belə verilir ki, qiymət rəqabəti açıq formada aparıldığından və əmtəənin maya dəyərinin azaldılması istiqamətində təsərrüfat subyektnin bütün imkanları səfərbər olunaraq istifadə olunduğundan məhdud hal kimi qəbul olunur. Nəticədə qiymət azalması yalnız müəyyən həddə qədər mümkün olur (əlbəttə, əgər təsərrüfat subyekt mənfəət qazanmaq fikrindədirsə, çünki dempinq zamanı əmtəə maya dəyərində və ya ondan da aşağı qiymətlə satışa çıxarıla bilər) və sonradan bu qiymət endirimi mənfəət normasının azalmasına, maliyyə vəziyyətinin pisləşməsinə və müflisləşmə təhlükəsinin artmasına gətirib çıxara bilir. Rəqabət mühitinin təhlili rəqiblərin fəaliyyəti haqqında bir sıra məlumatların toplanması ilə də həyata keçirilə bilər. Lakin bazarda heç də bütün amillər hərtərəfli təhlil etmək mümkün olmur. Bu əsasən də rəqibin xərcləri və məsrəflərinin strukturu gizli kommersiya sirri olduqda belə təhlil aparmaq daha çətin olur. Bu xarakterli çətinlik yaradan informasiya təsərrüfat subyektində işləyən heyətin sayı (çox zaman əmək müqaviləsi bağlanmır və faktiki işçilərin sayı heç bir sənəddə dəqiq göstərilmir), birbaşa və faktura xərclərinin strukturu (bəzən artıq göstərilir), xammal, material, komplektləşdirici detalların dəqiq dəyəri (onlar rəsmi sənədlərdə süni olaraq artırılıb-azaldıla bilinir),ehtiyata və əsas kapitala investisiya qoyuluşlarının həcmi, satış həcminin göstəricisi çıxış edir. Ona görə də təhlilin dəqiqliyi mövcud informasiyanın olması və ya düzgün olmasından,

rəqibin isə təhlükəli (rəqabət baxımından) hesab edilməsi dərəcəsindən asılı olur. . Belə ki, müxtəlif ölkələrin qanunvericiliyinin və praktikasının təhlili nəticəsində belə qənaətə gəlinmişdir ki, Ümumdünya Iqtisadi Forumu *(World Economic Forum*) təklif olunan «rəqabətin qəbul edilmə səviyyəsi» proksi-dəyişkənindən (*Competition Perception Index*) istifadə olunsun. Amma qeyd etmək lazımdır ki, bu göstərici də ayrı-ayrı bazarların vəziyyətini deyil, ümumilikdə müəyyən ölkə miqyasında rəqabətin vəziyyəti haqda ümumi məlumat verir, onun xarakterinin tam əks etdirə bilmir. Ona görə fikrimizcə, rəqabət mühitinin qiymətləndirilməsində daha çox sorğu metodlarının, rəqabətin qəbul edilmə göstəricilərinin (*Competition Perception Index*) istifadəsi optimaldır. Digər bir məqam da odur ki, rəqabət mühitinin təhlili zamanı iqtisadi modellərdən də istifadə olunmalıdır. Son dövrlər aparılan elmi-nəzəri tədqiqatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, anqlo-sakson ölkələrində rəqabət mühitinin qiymətləndirilməsində təmərküzləşmə göstəricilərindən az istifadə olunmağa başlanılıb və onun əvəzində bazar hakimiyyəti ölçüsünün göstəricisinə, qiymətlə məsrəflər arasında fərqə (*price cost margin)*, orta dəyişən məsrəflər üzrə mənfəətin elastikliyi *(profit elasticity*) göstəricilərinə üstünlür verilir. Əlbəttə, bu göstəricilərin özləri də yeganə şəkildə bazarın rəqabət mühitini təyin etməyə imkan vermir. Belə ki, bazar hakimiyyəti və ya bazara hakim olma bazarda tələb və təklifin xarakteristikasını təyin etməyə, konsentrasiyanın səviyyəsini müəyyən etməyə, rəqabətin xüsusiyyətlərini açıqlamağa imkan verən çox saylı amillərə baxılmanı tələb edir. Əsasən C.Beker və T.Breznahan tərəfindən bazar hakimiyyəti iki funksiyanın: sahənin tələb funksiyası və sahənin təklif funksiyasının qiymətləndirilməsi ilə təyin edilir. Təcrübədə onların riyazi hesablanmasının çətinlik yaratması və məlumatların dəqiq olması səbəbindən bazar hakimiyyətinin qiymətləndirilməsinin uyğunlaş-dırılmış metodlarından istifadə edilir. Ümumiyyətlə, apardığımız araşdırılmalar nəticəsində belə bir qənaətə gəlinir ki, rəqabət mühiti nisbi anlam olub sahənin və ya sahələr komplekslərinin immanent (bir şeyin və ya hadisənin öz təbiətinə xas olan; daxili) keyfiyyəti deyil. Rəqabət mühiti daim dəyişkəndir və ona görə də onun hər bir vəziyyətdə optimallaşdırılması mütləqdir və belə olan halda onun qiymətləndirilməsi konkret səviyyədə aparılmalıdır. Müasir dövrdə ölkəmizində rəqabət mühitinin optimallaşdırılması və onun dövlət tərəfindən tənzimlənməsi iqtisadi və sosial inkişaf etmiş ölkələr siyahına daxil olmaq üçün zəruridir. Bu da antiinhisar və rəqabət sahəsində normativ–huquqi aktların və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsini tələb edir. Dövlət tənzimlənməsi səmərəli olmaqla real vəziyyətə

adekvat alət və vasitələrlə həyata keçirilməlidir ki, həm qiymətlərin səviyyəsinə, həm də müxtəlif sahələrdə innovasiya və texnoloji dəyişikliklərin intensivliyinə bilavasitə təsir edə bilsin. Rəqabət mühitinin optimallaşdırılması istiqamətində xarici ölkələrin həyata keçirdiyi inhisarçılıq fəaliyyətinin tənzimlənməsi təcrübəsindən istifadə ölkəmiz üçün praktiki əhəmiyyətə malik olmaqla resurs və zamanın qənaətinə, buraxılmış səhvlərin təkrarlanmamasına imkan verər.

**3. İnhisarçılıq fəaliyyətinin dövlət tənzimlənməsinin müasir vəziyyəti təhlil edilərək, konkret şəraitden irəli gələn çatışmazlıqlar müəyyənləşdirilmişdir.**

Hər bir ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi, institutsional strukturu, təbii-resurs, əmək və maliyyə potensialı, dünya iqtisadi sistemində coğrafi-iqtisadi, siyasi-ideoloji mövqeyi və s. amillərin təsiri altında formalaşan iqtisadi siyasətinin əsas istiqamətlərindən olan antiinhisar siyasəti təcrübəsinin öyrənilməsi davamlı və dayanıqlı inkişaf yoluna qədəm qoyan Azərbaycan üçün əməli əhəmiyyət kəsb edən bir problemə cevrilmişdir. Biz bu təcrübənin öyrənilməsi probleminə ilk növbədə sənayecə inkişaf etmiş ölkələrin,o cümlədən Avropa Ittifaqı inteqrasiya blokuna daxil olan digər ölkələrin, həm də bizim kimi transformasiya dövrünü yaşamış ölkələrin bu sahədəki qanunvericiliyinin və antiinhisar siyasətinin prinsipial müddəalarının öyrənilməsi istiqamətində yanaşmağa cəhd etdik. Tədqiqatlar göstərir ki, inhisarçılıq fəaliyyətinin tənzimlənməsi iki prinsip, yəni inhisarların ümumiyyətlə qadağan edilməsi və inhisarçılığa nəzarət etməklə sui-istifadə hallarının məhdudlaşdırılması prinsipləri üzərində qurulmuşdur. Sənayecə inkişaf etmiş ölkələrdə inhisarların qiymətlərinə və rentabellik həddlərinə dövlət tərəfindən nəzarətin təşkili və reallaşdırılması müxtəlif ölkələrdə fərqli prinsiplərlə həyata keçirilir.ABŞ-da qiymətlərin 5-10% dövlət tərfindən müəyyənləşdirilir və onlara nəzarəti ABŞ Ədliyyə Nazirliyinin Antitrest idarəsi və Federal Ticarət Komisssiyası tərəfindən həyata keçirilir. Əsasən bu orqanlar qiymət sövdələşmələrinə nəzarət edir və qiymət ayrı seçkiliyinə qarşı mübarizə aparır

«Bihoviorist model» (ingilis dilində «davranış» deməkdir) adlandırılan Avropa modeli isə Amerikan modelindən fərqli olaraq istinadı təsərrüfat subyektlərinin davranışına təsir edərək bazarda hegemon vəziyyətdən sui istifadə edənlərə qarşı nəzarət prinsipi üzərində qurulur. Bu yanaşma problemə daha məntiqi əsaslarla yanaşaraq hər bir inhisarı qeyri-qanuni adlandırmır. Burada əsasən ictimai maraqlara və cəmiyyətin sosial-iqtisadi həyatına neqativ təsir edən təsərrüfat subyektlərinin fəaliyyətinin məhdudlaşdırılmasına diqqət yetirilir Amma onun reallaşdırılması üçün xüsusi

inzibati idarəetmə orqanlarının olması tələb olunur ki, bu da müxtəlif bazarlarda rəqabətin vəziyyətinin öyrənilməsi üçün təhlil və nəzarətin aparılması tələbindən irəli gəlir. Orqanların vəzifələrinə zəruri olan hallarda inzibati-birbaşa təsir vasitəsi sayılan korrektə etmə, tənzimləmə və qadağan etmə tədbirlərinin tədbiq edilməsi də aiddir.

Son onillikdə bu iki modelin arasındakı kəskin fərqlərin azaldılmasına doğru gedən, orta bir sistemin formalaşması istiqamətində inkişaf tendensiyası müşahidə olunur. Əsasən də Avropa modelinin xüsusiyyətlərinin üstünlük təşkil etdiyi bu sistem, artıq təsərrüfat subyektlərinin fəaliyyətinin tənzimlənməsində yalnız onların nisbi və mütləq ölçülərinə görə deyil, onların fəaliyyətinin sosial-iqtisadi nəticələrinin cəmiyyyətə təsirinə görə aparılır. Bir sıra ölkələrdə dövlətə məxsus inhisarlar ğeniş fəaliyyətə malik olmuşlar (Irlandiya, Böyük Britaniya, Fransa, Italiya, Yunanıstan, AB-nə yeni üzv dövlətləri). Həmin ölkələrdə iqtisadi proseslərin liberallaşmasına nail olmaq üçün geniş mandatlı tənzimləyici orqanın təsis edilməsi tələb olunmuşdur.

Bu gün də ölkələrin əksəriyyətində antiinhisar siyasəti icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Bəzi hallarda bu funksiyanı xüsusi agentliklər və komissiyalar yerinə yetirirlər. Türkiyədə antiinhisar fəaliyyəti daha çox rəqabət qanunu vasitəsi ilə tənzimlənir. Bu qanun Aİ çərçivəsində onun bir hissəsi olaraq 1997-ci ildə qəbul edilmişdir. Həmin qanunda rəqabətin dörd alətinin birincisi – dominant mövqeyindən sui-istifadənin qarşısının alınması, kartellərin təhqiqi bazar şəraitində resursların səmərəli paylanması üçün rəqabətin təmin edilməsi, üçüncüsü birləşmələrə nəzarət və rəqabətin təşviqi öz əksini tapır.

Türkiyə qanunvericiliyinin səmərəliliyini artırmaq üçün rəqabət siyasətinin ölkədaxili faydalarının öyrənilməsinə xüsusi diqqət yetirilir.

Məhz onun nəticəsidir ki, Türkiyədə həyata keçirilən rəqabət siyasəti aydın və effektiv olmaqla iqtisadi inkişafın dinamik və səmərəli inkişafına müsbət təsir göstərir. Bu qanun vətəndaşların, istehsalçıların və istehlakçıların maraq və mənafelərini qoruyur. Təsadüfi deyildir ki, ölkənin rəqabət qanununun Aİ, iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı tərəfindən tanınır və müsbət qiymətləndirilir.

MDB ölkələri ərazisində antiinhisar siyasəti milli antiinhisar qanunvericiliklərinin reallaşması əsasında və milli antiinhisar orqanlarının qarşılıqlı fəaliyyəti nəticəsində həyata keçirilir. Məlumdur ki, Azərbaycan UTT-yə, Aİ daxil olmaq məqsədilə antiinhisar siyasətində, rəqabətin qorunması sahəsində qanunlarda, normativ-hüquqi aktlarda müvafiq dəyişiklik və düzəlişlər apararkən milli iqtisadi maraqları, təhlükəsizliyin təmin edilməsi probleemlərini nəzərdən qaçırmamalı,

dəyişən tələbə və şəraitə uyğun institusional dəyişikliklər aparmalıdır. Təcrübə göstərir ki, ölkəmizdə qüvvədə olan antiinhisar qanunvericiliyində, effektiv rəqabət mühitinin formalaşmasında boşluqlar və ziddiyyətli hallar vardır. İnhisarçılıq fəaliyyətinin və rəqabətin ölkə iqtisadiyyatına təsirini daha geniş müəyyən etmək üçün istehsalçıların maraqlarının qorunmasına da diqqəti artırmaq zəruridir.

**Cədvəl № 1**

**2011-2013-ci illərdə Azərbaycanda antiinhisar siyasəti, rəqabətin qorunması, inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin qarşısının alınması və aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin istiqamətləri**

| № | Göstəricilər | İllər | | |
|---|---|---|---|---|
| | | **2011** | **2012** | **2013 ərzində** |
| **1** | **Aparılmış yoxlamaların sayı** | 105 | 139 | 108 |
| **1.1** | Nöqsan aşkar edilmişdir | 79 | 131 | 91 |
| **1.2** | Nöqsan aşkar edilməmişdir | 26 | 8 | 17 |
| **2** | **Qanun pozuntusu ilə əlaqədar görülmüş tədbirlər** | 68 | 133 | 91 |
| **2.1** | Göstəriş verilmişdir | 11 | 34 | 15 |
| **2.2** | Iş qaldırılmışdır | 57 | 99 | 76 |
| **3** | **Yekunlaşmış işlər** | 46 | 95 | 56 |
| **3.1** | Maliyyə sanksiyası tətbiq edilmişdir | 43 | 90 | 40 |
| **3.2** | Tətbiq edilən maliyyə sank-siyalarının məbləği (min AZN) | 944,9 | 306,8 | 80,8 |
| **3.3** | Xəbərdarlıq verilmişdir | 3 | 4 | 16 |
| **3.4** | Xitam verilmişdir | - | 1 | 0 |

Mənbə: AR Iqtisadi Inkişaf Nazirliyinin Antiinhisar Siyasəti Departamenti (2006-cı ilə qədər) və AR Iqtisadi Inkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və Istehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin məlumatları əsasında tərtib edilib.

Hakim mövqedən sui istifadə hallarının aşkarlanması ilə bağlı respublikada həyata keçirilən tədbtirlərə diqqət yetirdikdə (cədvəl № 1) bir mənalı aydın ğörünür ki, son illər üzrə inhisarcı təsərrüfat subyektlərin sayı azalır, lakin onlara qarşı tədbiq edilən sanksiyalar və maliyyə cərimələri artır. Bu da tədbirlərin keyfiyyətinin gücləndirilməsinə və nəzarətin artmasına işarədir.

Məlumdur ki, ixrac bazarlarında proteksionizmin səviyyəsi ölkənin ticarət sahəsində rəqabətliliyə təsir edən əsas amillərdəndir. Məhz buna görə də dövlət hər şeydən əvvəl daxili bazarın formalaşmasnda, qiymət mexanizminin bir daha təkmilləşdirilməsi yolu ilə daxili bazarın yerli istehsal hesabı ödənilməsinə səy göstərməlidir. Heç də gizli deyildir ki, maliyyə böhranı şəraitində idxal hesabına istehlak edilən malların qiymətləri yerli istehsala çəkilən xərclərdən dəfələrlə aşağıdır. Bu səbəbdən dövlət qiymət və tariflərin tənzimlənməsi mexanizminə hər tərəfli deyil, kompleks qaydada, sistemli yanaşmalıdır. yəni təkcə idxal qiymətlərinə deyil, həm də ixrac qiymtəldəri də nəzərdən keçirilməlidir.

Son illər Azərbaycanın əsas ixrac bazarları üzrə aparılan təhlil və qiymətləndirmələr bu sahədə də bir sıra çətinliklərin və problemlərin oldugunu göstərir. Məsələn, son illərdə Azərbaycanın ixracda (xüsusən neft və neft məhsulları üzrə 2013-cü il üçün) əsas tərəfdası olan Italiyanın bazarına Azərbaycan mallarının çıxısı yolunda tarif proteksionizminin göstəricisi olan advalor tarif ekvivalenti 66%-ə, Israildə 65,4%, Türkiyədə 190,9%-dir, Fransada 66%-dir. Nəzərə alsaq ki, beynəlxalq ticarət təcrübəsində 50%-ə yaxın göstərici artıq çox yüksək hədd hesab olunur, onda Azərbaycanın ixracda rəqabət göstərmə imkanlarının azaldılması müşahidə olunur. Yerli Istehsalçılarımızın xarici bazarlarda, xüsusən də Qərb bazarlarında bir çox sektorlar üzrə mövcud qaydalara, əsasən də texniki standartlar, keyfiyyət, saglamlıq və təhlükəsizlik məsələlərinə lazımi səviyyədə əməl etmədiyindən, malın mənsəyinin müəyyən edilməsi, texnoloji tələblərə əməl olunması və tələb olunan sənədlərin əldə edilməsindəki çətinliklər, eləcə də bunun üçün lazım olan xərclərin yüksək olması və ya yerli istehsalçıların xarici bazarlara effektiv çıxıs imkanları olmadığından problem və maneələrin sayı artır. Xüsusilə, standartlasma sahəsindəki mövcud vəziyyət respublikamızda istehsal olunan mallarının Qərb bazarlarına çıxısı yolunda başlıca maneə olduğundan standartlasma sisteminin təkmilləsdirilməsi həddən artıq vacibdir.

**4. Təbii inhisarçılığın tənzimlənməsinin spesifik cəhətləri araşdırılaraq iqtisadi inkişafa mane ola biləcək amillər önə çəkilmişdir**

Ölkəmizdə dövlətin antiinhisar fəaliyyəti əsasən iki istiqamətdə aparılır. Birinci istiqamət çoxluq təşkil edən və inhisarçılıq zəruri hesab edilməyən bazarlarda antiinhisar qanunvericiliyi əsasında həyata keçirilən istiqamət, ikinci istiqamət təbii inhisarların tənzimlənməsidir ki, dövlət tərəfindən onların iqtisadi davranış və fəaliyyətinə nəzarət etməklə yanaşı mövcudluğu mütləq hal kimi qəbul olunur. Təbii inhisarlar istehsalın texnoloji xüsusiyyətindən irəli gələrək rəqabətin olmadığı bazarda əmtəənin (xidmətin, işin) tələbini ödəmək üçün istehsalını həyata keçirən təsərrüfat subyekti və ya təşkilatlardır. Təbii inhisarlaraın məhsulları, xidmətləri digər əmtəə və xidmətlərlə əvəz edilə bilinmədiyindən onlara tələb daim var və bu qiymət dəyişməsindən asılı olmayaraq demək olar ki, sabit qalır. Ona görə də təbii inhisar sahələri çox zaman dövlətin mülkiyyətində saxlanılır və belə sahələrə nəqliyyat, rabitə, kommunikasiya xidmətləri, enerjidaşıyıcılar və s. sahələr aid edilir. Təbii inhisar subyektlərin fəaliyyətinin tənzimlənməsi üsulları kimi qiymətlərinin (tariflərinin) tənzimlənməsi; mütləq xidmət edilməli olan istehlakçı qrupların və onların əmtəəyə olan tələbatının tam ödənilməsi mümkün olmadıqda, təminatın minimum həddinin müəyyən edilməsi; əmtəə istehsalının həcminin müəyyən olunmuş göstəricilərinə əməl edilməsinin təmin olunması və nəhayət, təbii inhisar subyektləri tərəfindən tənzimlənməyən fəaliyyət sahələrinə ayrılan kapital qoyuluşunun razılaşdırılması istifadə olunmağa başladı. Təbii inhisar subyektlərinin qiymət və tariflərinin iqtisadiyyatda və onun inkişafında, rəqabətqabiliyyətliliyin təminində birbaşa təsirini nəzərə alaraq dövlət onların fəaliyyətinə nəzarəti gücləndirməyə başladı və nəticədə,təbii inhisar subyektləri dövlət tənzimlənmə orqanlarının qərarlarını, göstərişlərini və tələblərini yerinə yetirməyə və müəyyən olunmuş formada və qaydada fəaliyyəti haqqında cari hesabatı, maya dəyərinin maddi və əmək məsrəflərini əks etdirən kalkulyasiyanı və qiymətlərin (tariflərin) səviyyəsini, kapital qoyuluşlarının layihələrini və mülki hüquqi müqavilələrini və təsərrüfat əlaqələri haqqında məlumatları həm vergi orqanlarına, həm də inhisarçılıq fəaliyyətini tənzimləyən İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim edirlər. Qloballaşma proseslərinin təsirini və rəqabətqabiliyyətliliyin təmini nəzərə alınmaqla müasir şəraitdə təbii inhisara aid edilən infrastruktur sahələrinin (elektrik enerjisinin, qazın, kommunal xidmətlərinin, nəqliyyat xidmətlərinin və s.) qiymətlərinin dünya bazar qiymətlərinə yaxınlaşdırılması və dövlətin müəyyən əhali qrupları üçün güzəşt və

dotasiyalarının tədricən azaldılması və ləğvinin həyata keçirilməsi prosesi baş verir. Məlumdur ki, güzəşt və dotasiyaların bazar prinsiplərinin tələblərinə cavab vermədiyinə görə onların ləğvi zəruri proses kimi qiymətləndirilməlidir. Lakin müasir dövrdə yaşayış minimumunun cəmiyyəti bir qrup əhali təbəqəsinin minimum istehlak xərclərini ödəmədiyinə görə dövlət bu sahədə islahatları tədricən aparmaq zərurətində qalır. Ümumiyyətlə, təbii inhisar sahələrindən olan elektrik enerjisi, qaz, su və nəqliyyat sahələrinin bir-biri ilə və iqtisadiyyatın bütün digər sahələri ilə qarşılıqlı zəncirvari asılılğı onların qiymət və tariflərinin iqtisadiyyatdakı tarazlığa, davamlı inkişafa və rəqabəqabiliyyətliliyə təsirinin dövlət tərəfindən həyata keçirilən makroiqtisadi siyasətdə nəzərə alınmasını zəruri edir.

**5. İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin regional aspektləri araşdırılaraq onun tənzimlənməsinin səciyyəvi cəhətləri qruplaşdırılmışdır**

İnhisarçılıq fəaliyyətinin makroiqtisadi səviyyədə təhlili göstərir ki, onun milli iqtisadiyyatın müxtəlif səviyyələrdə tənzimlənməsi fərqli xüsusiyyətlərə malikdir. Son illərdə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı qəbul edilmiş və uğurla reallaşdırılması sayəsində regionların potensialı və bazarın tutumu kəskin artmışdır. Digər tərəfdən tarixən regionlarda bazar subyektlərinin sayının az olması da regionlarda inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin spesifik cəhətlərini müəyyənləşdirir. Regionların təsərrüfat komplekslərinin restrukturlaşmasının ilkin mərhələdə olması, 2004-2008-ci illərri, 2009-2013-cü illəri əhatə edən birinci və ikinci proqramın reallaşdırılmasına baxmayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı tədbirlərin hələ davam etməsi (regionların inkişafı ilə bağlı tədbirlər regional iqtisadiyyatların formalaşması prosesinin reallaşdırılması bir mənalı olaraq regionlarda da inhisarçılığın tənzimlənməsi, rəqabət mühitinin zəruri tələblərə cavab verməsi istiqamətində çox iş görmək lazımdır. Qloballaşma şəraitində ölkələrin iqtisadi təhlükəsizliyinin təminatının əsas istiqamətlərindən biri kimi çıxış edən rəqabət mütinin formalaşdırılması və inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin institutsional «təşkil edilməsi»nin təkmilləşdirilməsi sahəsində dövlət tədbirlərinin əhəmiyyəti danılmazdır. Bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasında respublikada regionların sosial-iqtisadi inkişafı ilə bağlı aparılan islahatların da rolu böyükdür. Belə ki, regionların sosial-iqtisadi sistemində mövcud olan institutlar bütün regional iqtisadi subyektlərinin davranışını formalaşdıraraq fəaliyyətini tənzimləyir və onların rəqabət mübarizəsinə şərait yaradır.

Belə institutlar formal və qeyri-formal instiutulara bölünməklə regional subyektlərin rəqabət mübarizəsində iştirakına imkan verir. Əgər formal institutlar regional rəqabət siyasətinin həyata keçirilməsi ilə məşğul olan müvafiq təşkilat və idarələrdirsə, qeyri-formal institutlar kimi regionun sosial-mədəni inkişafına təsir göstərən iqtisadi fəaliyyətin və rəqabət mübarizəsinin iştirakçılarının adət-ənənələri, əhalinin mentaliteti və mədəniyyəti, əxlaqi normaları çıxış edir. Ümumən, fikrimizcə regionlarda və onun timsalında ölkədə rəqabət mühitinin formalaşmasına müsbət təsir edən institutsional dəyişikləri həyata keçirən institutlar formalaşdırılmalıdır. Belə iqtisadi institutların məcmusu və onların formalaşdırdığı, yerinə yetirdiyi şərtlər regionların, onların iqtisadi subyektlərinin ölkə və beynəlxalq miqyasda müəyyən edilmiş norma və qaydalar əsasında rəqabət münasibətlərinə cəlb edilməsinə imkan verir, rəqabətin qorunub saxlanması mexanizmlərinin təkmilləşdirilməsi isə rəqabətin instiututsional mühitini əlverişli edir ki, bu da davamlı inkişafın əsas məqsədlərindən biridir. Nəhayət bütün bunlar yaxın gələcəkdə ölkəmizdə rəqabət mühitinin şəffaf və təkmil olmasına xidmət edərək, onun davamlı sosial-iqtisadi inkişafına zəmin yaradaraq antiinhisar tənzimləməsinin təkmilləşdirilməsinə, bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritetlərini reallaşdırmağa imkan verəcək.

**6. Antiinhisar siyasəti sahəsində qanunvericilik və hüquqi təminat bazasının təkminləşdirilməsinin zəruriliyi əsaslandırılmış və onun əsas istiqamətləri göstərilmişdir.**

Antiinhisar qanunvericiliyinin işlənib hazırlanmış qaydaları, vasitələri və mexanizmləri isə ölkədə formalaşmış bazar təsərrüfatının inkişafının hansı səviyyədə olması və cəmiyyətin və dövlətin sahibkarlığa münasibətinin güzgüsünə çevrilir. Onların təkmil olması cəmiyyətin inkişaf səviyyəsinin yüksək olmasını, dövlətin isə iqtisadi və sosial inkişafa nə dərəcədə önəm verməsini təzahür etdirir. Bu baxımdan fasiləsiz bir proses olan dövlətin antiinhisar qanunvericiliyi və normativ hüquqi bazanın təkmilləşdirilməsi yollarının axtarılması müasir dövrdə geniş müzakirə olunan bir problemə çevrilmişdir. Ölkəmizdə anttinhisar qanunvericilik bazasının kifayət qədər təkmil olmasına baxmayaraq onda mövcud olan boşluqlar ən başlıcası onların əməli tətbiqi zamanı meydana çıxan problemlər səbəbindən bu siyasətin effektiv həyata kecirilməsini çətinləşdirir. Apardığımız araşdırmalar birmənalı olaraq ğöstərir ki, antiinhisar qanunvericiliyinin elmi-metodoloji bazası ilə konkret iqtisadi məhkəmə təcrübəsinin qarşılıqlı təsiri zəminində təkmilləşdirilməsinə böyük ehtiyac duyulur. Fikrimizcə,inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin təkmilləş-

dirilməsi məqsədi ilə hazırda qəbul olunacaq yeni qanunvericilikdə aşağıdakıların nəzərə alınması zəruridir:

- bir təsərrüfat subyekti gizli olaraq özündə bir neçə təsərrüfat subyektini birləşdirərək "kollektiv dominantlı"ğını təsdiq edəcək maddələrin qəbulu;
- şəxslər qrupu anlayışının dəqiqliklə verilməsi və onlara şamil edilən antiinhisar tənzimləməsinin xüsusiyyətlərini əks etdirən maddələrin verilməsi;
- dövlət köməyinin göstərilməsi hallarını və prosedur qaydalarını əks etdirən maddələrin verilməsi;
- hökmran mövqedən sui istifadə hallarında, digər qanun pozuntusu zamanı təsərrüfat subyektini xəbərdar etmə prosedur qaydalarını əks etdirən maddələrin verilməsi.

Hazırda qanunvericilikdə bazarın ərazi sərhədləri ilə bağlı məsələlərin də təkmilləşdirilməsinə ehtiyac var. Belə ki, ölkə üzrə əmtəə bazarının təyini heç bir çətinlik törətmədiyi halda regionlarda bu əmtəə bazarlarının sərhədlərinin təyini məsələlərinə diqqət yetirilməmişdir. Əsas müzakirə olunan məsələ də məhz bu ərazilərdə əmtəə bazarlarının sərhədlərin dəqiqləşdirilməsi ilə bağlıdır və istehlakçının iqtisadi imkanlarından asılı olaraq hər hansı əmtəənin uyğun ərazidə əldə edə bilməsi və bu imkanın həmin ərazidən başqa yerdə olmaması ilə bağılıdır. Ümumən bu imkanın olmaması iqtisadi, texnoloji, inzibati məhdudiyyətlər, əngəllərlə bağlı olduğundan bazarın coğrafi sərhədələrini təyin edərkən vahid iqtisadi məkana aid olan ərazilərdə əmtəənin və tələbin sərbəst yerdəyişmə etmə imkanının olması, əmtəə bazarlarının daxili sərhədləri çərçivəsində uyğun olan əmtəələrə uyğun gələn qiymət səviyyəsinin olması amilləri nəzərə alınmalıdır. Bu isə əmtəənin dövriyyə sferasını təyin etməyə imkan verir. ona görə də rəqabət hüququna antiinhisar tənzimləmə hüququnun bir istiqaməti kimi baxsaq da,regionların irnkişafı ilə əlaqədar olaraq rəqabət hüququna daha çox sahibkarlıq hüququnun qanunaltı sahəsi kimi baxılması vacibdir.

**7. Effektiv rəqabət mühiti və dövlətin antiinhisar siyasətinin prioritetləri iqtisadi sistemin post transformasiyasına uyğun müəyyənləşdirilmişdir.**

Ölkədə bazar münasibətləri inkişaf etdikcə, yetkinləşdikcə inhisarçılıq fəaliyyətinin aradan qaldırılmasında, zəiflədilməsində effektiv rəqabət mühiti yaratmaq məqsədi ilə dövlət mexanizminin bu istiqamətdə təkmilləşdirilməsi problemi aktuallaşır. Nəzərə almaq lazımdır ki, əgər hələ yeni formalaşan və tam olaraq inkişaf etməmiş rəqabət mühiti

şəraitində dövlət tədbirləri bazara yeni iştirakçıların daxıil olması ilə bağlı inzibati maneələrin aradan qaldırılmasına, fəaliyyəti ilə rəqabəti məhdudlaşdırma hallarına səbəb olan dövlət orqanlarının vəzifəli şəxslərini nəzarət və müşahidə funksiyalarının bölgüsünün aparılmasında, buraxılan nöqsanlara görə işdən azad etmədə və s. kimi hallar əksini tapırdısa, artıq inkişaf etmiş rəqabət mühiti şəraitində dövlət tədbirləri rəqabət siyasətinin məqsəd və vəzifələrinin dəqiqləşdirilməsi və iştirakçılara izah edilməsinə, yeni inzibati maneələrin yaranmasının qarşısının alınmasına istiqamətlənir. Bu isə öz növbəsində gələcəkdə qarşılaşa bilinən inhisarçılıq məhdudiyyətlərinin müəyyən edilməsinə və kartellərin yaranması halının aradan qalıdırlması, mövcud olanların isə dayanıqlılığını zəiflədilməsinə səbəb ola bilər. Qeyd etmək lazımdır ki, köhnə tip tənzimləmə metodları bir sıra hallarda ziddiyyətli (bir çox hallarda sahələrarası əlaqələr, ekoloji və sosial problemlər nəzərə alınmadan tətbiq olunduğuna görə ), hətta müəmmalı, əksər hallarda qeyri-şəffaf və gözlənilməz idi. Müasir dövrdə bir sıra ölkələrdə artıq tətbiq edilməyə başlayan və geniş təbliğ olunan yeni tip tənzimləmə metodlarının məqsədi – zəruri sahələrdə rəqabəti formalaşdırmaq, aydın, şəffaf qanun və mexanizmlərdən istifadə etməklə inhisarçı şirkətlərin fəaliyyətini tənzimləməkdir. Qloballaşma şəraitində inzibati (qanunverici) tənzimləmə metodları ilə yanaşı geniş tətbiq olunan metod normativ-istiqamətləndirmə metodudur. Bu metod dövlət sifarişləri, vergilər, bank faizləri və dövlət subsidiyaları vasitəsilə reallaşdırılır. Dövlət bu vasitələrdən istifadə etməklə bir qayda olaraq milli bazarın müxtəlif seqmentlərinə təsir edir və orada rəqabətin intensivliyini tənzimləyir. Bu metodun tətbiqində əsas məqsəd isə sahibkarlıq fəaliyyətini stimulluşdırmaqdır ki, bu da prioritet sahələri inkişaf etdirmək üçün dövlət sifarişləri, dövlətin vergi güzəştləri və subsidiyalar tətbiq etməsi ilə həyata keçirilir. Dünyada baş vermiş iqtisadi böhran və bir sıra ölkələrin valyuta məzənnəsi və monetar, fiskal siyasətləri sahəsində apardıqları antiböhran tədbirləri daxili bazar və dünya bazar qiymətlərində kəskin fərqlərin yaranmasına gətirib çıxarmışdır. Nəticədə dünyada neftin qiymətinin qalxmasına baxmayaraq məhsul artıqlığı, investisiya çatışmamazlığı və s. səbəblərdən bir sıra ölkələrin məhsullarının qiymətlərinin çox aşağı düşməsi prosesi müşahidə olunur. Belə bir vəziyyətdə daxili bazarda proteksionist tədbirlərlə yanaşı beynəlxalq aləmdə yerli təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyini artırmaq üçün inhisar mövqeli məhsullar üzrə qiymətqoymanın metodologiyasının təkmilləşdirilməsinə, makroiqtisadi səviyyədə və dünya iqtisadiyyatı üzrə qiymətlərin təhlili və proqnozlaşdırılmasına böyük ehti-

yac duyulur. Fikrimizcə, müasir dövrdə ən əsas problemlərdən biri haqsız rəqabət formalarından geniş istifadə olunması hallarıdır ki, bu da həm cəmiyyətin və təsərrüfat subyektlərinin, həm də dövlətin iqtisadi maraqları arasında tarazlığın pozulmasına səbəb olur, milli təhlükəsizliyin tərkib hissəsi olan iqtisadi təhlükəsizliyin təmini üçün maneə yaradır. Ona görə qloballaşma və inteqrasiya proseslərinin intensiv inkişaf etdiyi bir dövrdə iqtisadi təhlükəsizlik baxımından rəqabətin tənzimlənməsində texniki reqlamentlərin gözlənilməsini vacib hesab edirik və onun məqsədləri qisminə «istehlakçılara yalan məlumat verməklə onları yanıltma hallarının qarşısının alınması»nı da daxil etmək zəruri hesab olunur. Bazarda rəqabət vəziyyəti daim inkişaf etdiyindən bu dəyişiklikləri sistematik müşahidə etmək, rəqiblərin imkanlarını düzgün qiymətləndirmək, təsərrüfat subyektlərinin seçdikləri strategiyaların rəqabətə dayanıqlı olmasını yoxlamaq dövlət orqanlarının bir vəzifəsi kimi çıxış etməlidir. Milli iqtisadiyyatın davamlı inkişafını təmin etmək baxımından antiinhisar siyasətinin həyata keçirilməsində əsas çətinlik törədən problem isə rəqabət qabiliyyətinin dərəcəsinin müəyyən edilməsidir ki, bu da müqayisə üçün baza obyektlərinin seçilməsində (ölkə daxili və xarici), resursların istifadəsində məhsuldarlıq meyarlarının («itkisizlik» və ya bazara sahib olduğu hissəsinin genişləndirilməsi prinsipinin) seçilməsində, ölkə sərhədlərindən kənarda olan bazarı müşahidə etmək imkanında və s. öz əksini tapır. Dövlətin antiinhisar siyasətinin prioritetlərini müəyyənləşdirərkən aşağıdakılara diqqət verilməsini məqsədə uyğun hesab edirik. Antiinhisar siyasətini həyata keçirərkən ümumilikdə milli iqtisadiyyatın və sahənin strukturunun rəqabətqabiliyyətlik baxımından təyini həyata keçirilməlidir. Eyni zamanda təsərrüfat subyektlərinin dövlət tərəfindən həyata keçirdiyi müəyyən tədbirlərə cavab reaksiyasının da istiqamətləri, meylləri və necə ola biləcəyi müəyyən edilməlidir. Qloballaşma dövründə KIT, istehsal və nəqliyyat texnika, texnologiyalarının, üfüqi şəbəkə ticarət sisteminin inkişaf etdiyi bir şəraitdə rəqabət imkanlarının artması həyata keçirilən antiinhisar siyasətində aşağıdakı amillərin də nəzərə alınmasını zəruri edir:

- rəqib təsərrüfat subyektlərinin mənfəətinin artma templəri və həcmini;
- təsərrüfat subyektlərinin istehsal-satış siyasətinin məqsəd və motivlərinin;
- təsərrüfat subyektlərinin öncə tədbiq edilmiş və cari satış strategiyalarını;
- istehsal xərclərinin strukturunu;
- istehsal və satış təşkilatlarının strukturunu;

- idaretmə mədəniyyətinin səviyyəsini.

Beləliklə hesab edirik ki, ölkəmizdə rəqabət mühitinin optimallaşdırılması və onun dövlət tərəfindən tənzimlənməsi iqtisadi və sosial inkişaf etmiş ölkələr siyahısına daxil olması üçün zəruridir. Ona görə də cəmiyyətdə optimal rəqabət mühiti yaratmaqla bütün formalarda inhisarçılığın məhdudlaşdırlıması və ya aradan qaldırması, dövlətin məntiqi, ardıcıl və sistemli şəkildə apardığı antiinhisar siyasətinin reallaşdırılması tədbirlərinin həyata keçirilməsi Azərbaycanın dünya iqtisadiyyatına bərabər əsaslarla tam və səmərəli inteqrasiyasına əlverişli şərait yaradır.

**Dissertasiya işinin əsas müddəaları ilə bağlı aşağıdakı elmi əsərlər nəşr edilmişdir.**

1. G.U.Quliyeva Müasir dövrdə Rəqabət mühitinin formalaşdırılması və inhisarçılıq fəaliyyətinin tənzimlənməsi problemləri / Türk dünyası sosial bilimler kongresi tebliğleri. 2. cilt, Türk dünyası araşdırmalar vakfı, İstanbul-2011, 0.3 ç.v.
2. G.U.Quliyeva İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin dünya təcrübəsi və onların Azərbaycana tətbiqi imkanları / Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər, №3, Bakı-2012, 0.3 ç.v.
3. G.U.Quliyeva Qloballaşma şəraitində rəqabət mühitinin formalaşdırılmasının meyarları, prinsipləri və göstəricilər sistemi / Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu Elmi Əsərlər, №4, Bakı-2012, 0.5 ç.v.
4. G.U.Quliyeva İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin dünya təcrübəsi və onların Azərbaycan iqtisadiyyatına tətbiqi imkanları / Azərbaycan Respublikası Kəndə Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, Azırbaycan elmi-tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutunun elmi əsərləri, Bakı-2012, 0.5 ç.v.
5. G.U.Quliyeva İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin tədqiqinin konseptual əsasları və ona dair baxışların təkamülü / Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri iqtisadiyyat seriyası, Bakı-2012, 0.5 ç.v.
6. G.U.Quliyeva İnhisarçılıq fəaliyyətinin tənzimlənməsində qiymət mexanizmindən istifadə və prioritetlər / Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi Beynelxalq elmi-praktik konfransın materialları, Bakı-2012, 0.5 ç.v.
7. G.U.Quliyeva Основные направления совершенствования государственного регулирования конкурентный среды и монополисти-

ческой деятельности / Вопросы новой экономики рецензируемый научнометодический журнал №1, Киров-2013, 0.4 п. л
8. G.U.Quliyeva Təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin əsas problemləri / İnternational scientific conference of young researchers, Qafqaz University, Baku-2013, 0.2 ç.v.
9. Г.У.Гулиева Специфические черты и механизмы государственного регулирования деятельности естественных монополий / Трансформация региона в условиях глобализации экономического развития, Россия, Ставропольский край-2013, 0,5 п. л
10. G.Ü.Quliyeva Rəqabət mühitinin təmin edilməsinin dövlət mexanizmləri / 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlıelmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri, Bakı-2013, 0.2 ç.v.
11. G.U.Quliyeva İnhisarçılıq fəaliyyətinin tənzimlənməsinin regional aspektləri / Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri, cild 1, Bakı-2013, 0.5 ç.v.
12. G.U.Quliyeva Qloballaşma və dünya iqtisadiyyatına inteqrasiya şəraitində dövlətin antiinhisar siyasətinin prioritetləri / Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes inzibatçılığı fakultəsi, Qloballaşan dünyada biznesin idarə edilməsi və KSM, Bakı-2014, s 0.5 ç.v.

**ГУЛИЕВА ГЮНАЙ УМУДВАР КЫЗЫ**

## Макроэкономические проблемы регулирования деятельности монополий

## Резюме

Монополии, которые формировались на последних этапах развития свободной рыночной экономики на определенном этапе своего развития стали препятствующим фактором экономического развития. Монополии возникли как организационно-экономическая форма производства, имеющая определьенные приемущества. Эти преимущества были направлены на ускорение экономического развития, но, используя свои преимущества искусственно, монополии способствовали ограниченню свободной конкуренции путем сговоров между собой овладело механизмом влияния на рынок и тем самым, монополии превратились в препятствующий фактор экономического развития.

В этой связи с целью предотвращения искусственного использования свои монополистических преимуществ монополиями в странах с развитой рыночной экономикой были приняты антимонопольное законы, направленне на предотвращение искусственного использования своим монополистическим положением.

Социалистическое общество в соответствии своей социально-экономической природе сформировала специфическую государственную форму монополизма. Государственный монополизм в конечном итоге, ограничивая рыночные отношения во всех социалистических странах с формировал дефицитную экономику.

С распадом социализма одним из первых задач стало преоделение государственного монополизма путем либерализации экономики. Претворением в жизнь ряда социально экономических мероприятий, созданием соверщенной правовой базы было обеспечено преодоление государственного монополизма. Создание частных предприятий, функционирующих условиях свободной конкуренции с развитыми рыночными отношениями создали благоприятные условия для формирования национальной экономики в Азербайджанской Республике.

В диссертационной работе исследуются макроэкономические аспекты монополистической деятельности с учетом указанных проблем.

**GUNAY UMUDVAR QİZİ QULİYEVA**

## Macroeconomic problems of the regulation of the monopolistic activity

Monopolies began to formulate at the end of the development of the free market economy and turned into a factor that prevented economic development. Monopolies had a particular advantages as an organizational economic form in the period of their establishment. These advantages were aimed to support economic development. On the contrary they began to abuse their advantages: to limit free competition, to get a full control over the market in their hands and in this way they became a factor that delayed economic development.

Beginning from the late of the XIX century the developed market economy countries began to adopt the laws refer to monopoly in order to prevent monopolies from abusing their monopolistic positions.

The socialist society formulated a specific form – "the state monopoly "—according to its social- economic nature. As a result the state monopoly organized the economy of scarcity by limiting markets in all the socialist countries .

After the collapse of socialism one of the most important task of the state was to abolish state monopoly by liberalizing of economy .

The implementation of some social economic activities and the establishment of the complete and legal market provided the abolition of state monopoly .

The organization of the private enterprises acting in the sphere of free competition set up a suitable condition for the formation of the national economy in the Republic of Azerbaijan by the development of the market relations.

In this dissertation the macroeconomic problems of the monopolistic activities are investigated by drawing attention to its above mentioned features.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГУЛИЕВА ГЮНАЙ УМУДВАР КЫЗЫ**

# МАКРОЭКОНОМИЧЕСКИЕ ПРОБЛЕМЫ РЕГУЛИРОВАНИЯ ДЕЯТЕЛЬНОСТИ МОНОПОЛИЙ

Специальность: 5308.01- «Общая экономика»

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ-2014**

*Kağız formatı 60x84 1/16.*
*Həcmi 1,5 ç.v. Sayı 100.*

-----------------------------------------------------

*" İqtisad Universiteti " Nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*